# «Azərbaycan məktəbi» jurnalı

2009-cu ildə 85 illiyi tamam olan «Azərbaycan məktəbi» pedaqoji mətbuat tariximizdə ən uzunömürlü jurnal sayılır. 1924-cü ildə «Yeni məktəb» kimi fəaliyyətə başlayan jurnal 1930-cu ildən «Müəllimə kömək», 1943-cü ildən isə «Azərbaycan məktəbi» adı ilə öz elmi-pedaqoji, publisistik və metodiki ömrünü davam etdirir. Bu müddətdə jurnal təhsilin bütün pillələri üzrə təhsil sisteminin yeniləşməsində, təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsində, mütərəqqi tədris metod və üsullarının təbliğində, gənc nəslin azərbaycançılıq, milli adət-ənənələr ruhunda tərbiyə olunmasında, təhsilin, tərbiyənin milli və bəşəri dəyərlər üzərində qurulmasında, qazanılmış qabaqcıl təcrübənin yayılmasında aparıcı rol oynayıb, öz səhifələrində yeni tipli məktəblərin, ali və orta ixtisas təhsil ocaqlarının, təhsili idarəetmə orqanlarının, yaradıcı müəllimlərin təcrübəsini ümumiləşdirən məqalələrə yer ayırıb, təhsil sahəsində inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsi və beynəlxalq əlaqələrə dair materialları oxuculara çatdırıb.

Ötən əsrin 30-cu və 40-50-ci illərində respublikada tədricən maarif məsələlərinə, təhsilin metodikasına ciddi fikir verilməyə başlayanda akademiklərdən Məmməd Arif, Feyzulla Qasımzadə, Həmid Araslı, Məmməd Cəfər, Əşrəf Hüseynov, Məmmədağa Şirəliyev, müxbir üzvlərdən dil üzrə Əzəl Dəmirçizadə, fizika üzrə Abasqulu Abbaszadə, riyaziyyat üzrə Maqsud Cavadov, kimya üzrə Cümşüd Zülfüqarlı, həmçinin metodika məsələlərilə əlaqədar SSRİ Pedaqoji EA-nın akademiki Mehdi Mehdizadə, ilk pedaqoji elmlər doktoru Əhməd Seyidov, professor Ağəmməd Abdullayev kimi görkəmli alimlər jurnalla sıx əməkdaşlıq əlaqələri qurub, özlərinin bir sıra qiymətli fikirlərini məhz bu məcmuə vasitəsilə oxuculara çatdırıblar.

«Azərbaycan məktəbi» jurnalının XX əsrin 60-70-ci illərində keçmiş ittifaqda görkəmli alimlər, elm kollektivləri, qabaqcıl müəllimlər tərəfindən işlənib hazırlanmış ideyaların və yeni sistemlə bağlı təcrübələrin respublika məktəblərində yayılmasında mühüm rolu olub.

Mirzə İbrahimov XX yüzilliyin 40-cı illərini nəzərdə tutaraq yazırdı: «…O zaman məktəb və müəllimlərimiz həmişəkindən daha artıq təlim-tərbiyə barədə müntəzəm məlumat verən ədəbiyyata, xüsusən qəzet və jurnala böyük ehtiyac duyurdu. Müharibə dövrü, ölkədə gərginlik vaxtı, gündəlik həyatda çox şeylərin çatışmadığı bir

zamanda bu təşəbbüs bəzilərinə qəribə görünürdü. Lakin onun zərurətini, su və hava qədər lazım olduğunu başa düşənlər və ona tərəfdar çıxanlar daha çox idi… Müəllimlərimizin, bütün maarif işçilərinin mənəvi tələbləri, pedaqoji elmləri dərindən mənimsəmək həvəsi, təlim və tərbiyənin vacib məsələlərini, məktəb həyatını ətraflı, köklü-budaqlı işıqlandıran elmi yazılara ehtiyac xüsusi bir jurnalın çap olunmasını tələb edirdi. Beləliklə, «Azərbaycan məktəbi» də yenidən meydana çıxdı… bu illər ərzində pedaqoji fikrimizin inkişafında, respublikamızda təlim-tərbiyə sisteminin kamilləşməsində, pedaqoji elmi kadrların yetişməsində, püxtələşməsində, məncə, onun xidmətləri çox böyükdür».

Müəllimə, məktəbə köməyin vacibliyini hiss edən bu jurnalın sonralar müxtəlif fənlər üzrə metodik məcmuələri də ərsəyə gəlib. Ötən əsrin 40-cı illərinin sonu və 50-ci illərinin əvvəllərindən başlayaraq jurnala bir sıra əlavələr nəşr olunub. Həmin metodik məcmuələr pedaqoji-metodik biliklərin ensiklopedik toplusu kimi daim diqqət mərkəzində olubdur. Belə məcmuələrin bəziləri («İbtidai məktəb və məktəbəqədər tərbiyə», «Azərbaycan dili və ədəbiyyatı tədrisi», «İnformatika, riyaziyyat və fizikanın tədrisi») indi də öz fəaliyyətini davam etdirir.

Müstəqilliyimizin ilk illərində «Azərbaycan məktəbi» jurnalı bir çox problemlərlə və bağlanmaq təhlükəsi ilə üzləşdi. Yalnız ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışı təhsilin bütün sahələrində olduğu kimi, pedaqoji mətbuat orqanlarının, o cümlədən «Azərbaycan məktəbi» jurnalının normal fəaliyyət göstərməsinə imkan və şərait yaratdı.

Bu gün jurnal Azərbaycan təhsil sistemində, uğurla davam edən islahat prosesinə bacardığı qədər töhfə verir. Azərbaycan dövlətinin, hökumətin təhsilə göstərdiyi diqqət və qayğı jurnalda dərc olunan məqalələrin əsas qayəsini təşkil edir.

«Azərbaycan məktəbi»nin ildə 6 nömrəsi çapdan çıxır. Jurnalda ardıcıl olaraq təhsil naziri Misir Mərdanovun yazıları dərc olunur, təhsil islahatları ilə bağlı məqalələr aparıcı yer tutur. Həmçinin, Təhsil Nazirliyinin məsul əməkdaşları, ali məktəb rektorları və digər tanınmış elm, təhsil adamları da jurnalda çıxışlar edir, vaxtaşırı dəyərli fikir və mülahizələrini oxucularla bölüşürlər.